# , etdiyi əməllərindən asılı olmayaraq Allah onu cənnətə daxil edər

Ubadədən (Allah ondan razı olsun) Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) belə dediyi rəvayət edilir: "Kim Allahdan başqa ibadətə layiq məbud olmadığına, Onun şəriki olmadığına, Muhəmmədin Onun qulu və rəsulu olduğuna, İsanın Allahın qulu və rəsulu olduğuna, Məryəmə sadəcə bir söz deməklə "ol" həqiqətinə və İsanın Onun yaratdığı ruhdan əmələ gəlməsinə, cənnətin haqq, cəhənnəmin haqq olduğuna şahidlik edərsə, etdiyi əməllərindən asılı olmayaraq Allah onu cənnətə daxil edər.

[Səhih] [Müttəfəqun aleyhi(əl-Buxari və Musliminsəhih gördüyü hədislər)]

Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) bizə xəbər verir ki, kim tövhid kəliməsinin mənasını dərk edərək söyləyərsə və onun tələblərinə uyğun əməl edərsə, Muhəmmədin (Allahın salavatı və salamı onun üzərinə olsun) Allahın qulu olduğuna və onun risalətinə, İsanın Onun qulu olduğuna və risalətinə, Allahın onu "Ol" deməyislə yaratmasına və Allahın yaratdığı ruhlardan bir ruh olmasına, anasının yəhudilərin ona nisbət etdiyi ittihamdan uzaq olduğuna, və mövcudluqlarına etiqad edərək, cənnətin haqq olduğuna, cəhənnəmin haqq olduğuna, onların Allahın neməti və əzabı olduqlarına iman edərsə və bunun üzərində ölərsə- itaətlərdəki nöqsanları və günahları olsa belə son gedəcəyi yer cənnət olar.